# Milli Dram Teatrında
## rejissor üslubunun inkişaf ənənələri

Belə teatr fədailərindən biri də Əbdürrəhim bəy Haqverdiyev olmuşdur.

Əbdürrəhim bəy Haqverdiyev Peterburqda oxuduğu illərdə yay tətillərində vətənə qayıdıb 1896-cı ildə Şuşada özünün yeni yazıb bitirdiyi "Dağılan tifaq" əsərinin tamaşasını hazırlayır, rejissorluq edir.

1899-cu ildə Peterburqda təhsilini başa vurub Bakıya qayıdır və teatr həyatı ilə daha yaxından məşğul olmağa başlayır. Bakıda, Ağdamda, Gəncədə, Şuşada teatr truppalarının təşkilində iştirak edir və bir çox əsərlərin tamaşalarının rejissoru olur. Ə.B.Haqverdiyev ilk peşəkar rejissor kimi 1901-1904-cu illərdə Bakıda oynanılan ".... türk /Azərbaycan - F.A/ teatrlarının hamısının rejissorluğu mənimlə olub" deyərək peşəkar rejissorluq sahəsində özünün birinciliyini təsdiqləyir. Bu fikir "Azərbaycan-türk teatrosunun müxtəsər tarixçəsi" kitabında görkəmli teatrşünas alim, professor C.Cəfərovun, sənətşünaslıq doktoru, professor İ.Rəhimlinin, sənətşünaslıq doktoru, professor İ.Kərimovun kitablarında da təsdiqlənir.



Beləliklə, böyük ədib Ə.B.Haqverdiyevin Azərbaycan rejissurasının pilləsində ilk addımlayan bir rejissor kimi onun fəaliyyətini təsdiqləyirik. Rejissura sahəsindəki bu peşəkarlığın formalaşması Ə.B.Haqverdiyevin yaradıcılığının sənətkarlıq üslubunun müəyyənləşməsində heç şübhəsiz ki, Aleksandrinski teatrının, onun dünya miqyasında tanınmış sənətkarlarının yaradıcılığı mühüm rol oynamışdır.

Bu müxtəliflik və ədəbi-bədii zənginlik Ə.B.Haqverdiyevin ilk milli peşəkar rejissura tariximizdə özünün dəsti-xətti, üslubu olan bir rejissor kimi yetişməsinə köməklik etmiş və şərait yaratmışdır.

Bu zənginlik səhnə sənətində, xüsusilə rejissor üslubunun müxtəlif çalarlarda və yeni poetika xüsusiyyətləri ilə inkişafına zəmin yaratmışdır.

Ə.B.Haqverdiyev yalnız 1901-ci ildən sonra rejissoru olduğu əsərlər: "Lənkəran xanının vəziri", "Hacı Qara", /M.F.Axundov/, "Müsibəti-Fəxrəddin", "Yağışdan çıxdıq, yağmura düşdük", "Ağa Kərim xan Ərdəbili", "Adı var, özü yox" /N.B.Vəzirov/, "Dilin bəlası" /N.Nərimanov/, "Yaxşılığa yamanlıq" /İ.Məlikov/, "Xəsis" /İ.B.Molyer/, "Otello" /V.Şekspir/, "Qaçaqlar" /F.Şiller/, "Müfəttiş" /N.V.Qoqol/, "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", "Ac həriflər", "Kimdir müqəssir" /Ə.B.Haqverdiyev/ və s. olmuşdur.

Bunlardan əlavə Ə.B.Haqverdiyev müxtəlif vaxtlarda janr müxtəlifliyi və rejissor sənətkarlığının üslub zənginliyi ilə seçilən onlarla başqa əsərlərin müvəffəqiyyətli tamaşalarına səhnə həyatı vermişdir.

1902-ci il oktyabrın 25-də Tağıyev teatrında N.B.Vəzirovun "Ağa Kərim xan Ərdəbili" tamaşasını hazırlayan Ə.B. Haqverdiyevin rejissorluğu barədə "Kaspi" qəzeti yazırdı: "Ümumiyyətlə, ifa müvəffəqiyyətlə keçdi, müsəlman truppasını bu mövsümdə əldə etdikləri nailiyyəti ilə təbrik etmək lazımdır. Truppanın təşkilatçısı və rəhbəri Ə.B.Haqverdiyevin gözəl işini qeyd etməmək olmaz. Onun hər şeyi çox incə zövqlə, həvəs və məhəbbətlə gördüyü tamaşanın hər bir gəlişində aydın hiss olunur".

"Ağa Kərim xan Ərdəbili" komediyası 1904-cü il yanvarın 4-də Ə.B. Haqverdiyevin rejissorluğu ilə yenidən tamaşaya qoyulmuş və C.Zeynalov xan rolunda böyük məharətlə çıxış edərək, tamaşaçılara güclü təsir göstərmişdir.

"İyirminci əsrin əvvəllərində Əbdürrəhim bəy dövlət işləri ilə yanaşı, mövcud teatr truppasına müəyyən mənada baş rejissorluq edir, repertuar siyasətini peşəkar istiqamətə yönəltməyə, daimi teatr dəstəsi, qarderob yaratmağa çalışırdı. Teatr dövlət himayəsində olmasa da, artıq aktyorluğu özlərinə peşə seçmiş Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Sidqi Ruhulla... kimi fədailər sənətkar təki formalaşır... qısa müddətdə tamaşalar hazırlayır, ya Bakıda çıxış edir, ya da İrana, Türkiyəyə, Həştərxana, Batuma... qastrol səfərinə çıxırdılar".

**Milli rejissor sənətimizin ilk illərində, peşəkar rejissorlarımızın hələ teatr aləmində əsaslı mövqe tutmadıqları vaxtlarda maarifpərvər ziyalılarımız və dramaturqlarımız Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov və başqaları ilk teatr truppalarında Bakı, Şuşa, Naxçıvan, Gəncə, Ağdam və s. şəhərlərdə bir çox tamaşaların hazırlanmasında yaxından iştirak edərək bu tamaşalara rejissorluq etmişlər.**

Teatr ictimaiyyətinə yaxşı məlumdur ki, 1908-ci ildə milli operamızın ilk tamaşasına Ə.B.Haqverdiyev dirijorluq etmişdir.

Teatr fədaisi olan Ə.B.Haqverdiyev bütün ömrü boyu teatr işinin təşkilində, yaradıcılığının bir çox sahələrində yorulmadan fəaliyyət göstərmişdir. 1920-ci ildə Respublika Xalq Maarif Komissarlığı nəzdində incəsənət bölməsi yaranır ki, bu bölmənin teatr şöbəsinə rəhbərlik etmişdir.

1921-ci il martın 1-də Müstəqil Azərbaycan hökumətinin teatr truppası yaradılır. Ə.B.Haqverdiyev bu truppanın repertuar sovetinin sədri seçilir.

Ə.B.Haqverdiyevin dramaturgiya və teatr sənətinin inkişafı naminə etdiyi xidmətləri yüksək qiymətləndirən mərhum professor, görkəmli teatrşünas alim Cəfər Cəfərov yazır: "Azərbaycan teatrının inkişafı üçün böyük əmək sərf edən Haqverdiyevin fəaliyyəti iki nöqteyi-nəzərdən səciyyəvidir. O, bir tərəfdən, teatrda xalq həyatının daha geniş bir şəkildə göstərilməsinə, milli dramaturgiyamızın istər mövzu və məfkurə, istərsə də üslub və janrca zənginləşməsinə, digər tərəfdən, Azərbaycan teatrının professional mədəniyyətinin artmasına, səhnə realizminin tərəqqisinə çalışır. Eyni zamanda, Haqverdiyev Azərbaycan teatrı repertuarının rus və Qərbi Avropa dramaturqlarının əsərləri hesabına genişlənməsi, səhnəmizdə rus teatr mədəniyyətindən səmərəli istifadə edilməsi üçün böyük səy göstərir".

Ə.B.Haqverdiyev dünya dramaturgiyasından "Hamlet" /V.Şekspir/, "Sultan Osman" /Fransua Volter/, "Pepo" /Q.Sundukyan/, "Qəzavat" /S.Lanskoy/, "Qazmaçılar" /Emil Zolya/, "Yəhudilər" /Y.Çirikov/ və s. əsərləri Azərbaycan dilinə tərcümə etmiş və bu əsərlərin tamaşalarını hazırlamışdır. Böyük ədibin çoxcəhətli yaradıcılığının mühüm sahəsini teatr sənəti, rejissorluq fəaliyyəti təşkil edir.

Professor Fikrət Sultanov Ə.B.Haqverdiyevin rejissorluq yaradıcılığı barədə qeyd edir ki, "Ə.B.Haqverdiyevin rejissor, teatr xadimi kimi fəaliyyəti Azərbaycan aktyorlarının sənətkarlığının yüksəldilməsində mühüm rol oynamışdır".

Müxtəlif illərdən başlamış bu günə kimi Azərbaycan Dövlət Milli Dram Teatrında işləmiş, Azərbaycan və dünya dramaturgiyasının ən qiymətli əsərlərinin tamaşalarını hazırlamış, Azərbaycan teatr sənətinin inkişafında, milli aktyor və rejissorlarımızın yetişməsində danılmaz xidmətləri olmuş rejissorlar: R.Darablı, Y.Yulduz, R.Təhmasib, M.Haşımov və başqalarının adlarını qeyd etməliyik.

Yenə də təəssüf hissi ilə qeyd etməyə məcburuq ki, bu sənətkarlar və onlardan sonra bu şərəfli vəzifəni ləyaqətlə davam etdirən, Milli Dram teatrının səhnəsində bir neçə əsərin tamaşasına quruluş vermiş Nəsir Sadıqzadə, Səftər Turabov, Əliheydər Ələkbərov, Əşrəf Quliyev və başqalarının rejissorluq fəaliyyəti tədqiqata cəlb olunmayıb. Mövzunun həcmi və əhatə dairəsi baxımından bu rejissorların hamısının yaradıcılığı, rejissor fəaliyyəti və bu yaradıcılığın

duq. Aparılan təmir işlərinin həyata keçirilməsində Rayon İcra Hakimiyyətinin başçısı cənab T. Quliyevə göstərdiyi köməkliyə görə kollektivimiz adından öz minnətdarlığımızı bildirirəm və demək istəməzdim ki, bununla təmir işləri başa çatıb, hələ görüləsi işlərimiz çoxdur. Şəhərin mərkəzində yerləşən Şəhriyar adına saraydan sonra öz tutumuna görə ikinci yerdə olan bu mədəniyyət evinə ehtiyac həmişə olub və yenə də olmaqdadır. İlk növbədə binanın dam örtüyü və daxildəki 40-cı illərdən qalmış stullar dəyişdirilməli, döşəmə, işıq və istilik sistemi yenidən qurulmalı və xalqımızın istifadəsinə verilməlidir. Hər gün mədəniyyət evinin bədii özfəaliyyət kollektivlərində, ayrı-ayrı dərnəklərində məşğul olan yüzlərlə istedadlı gənclərin mədəni məşğuliyyət yerinə verilən mədəniyyət ocağına təmənnasız-minnətsiz kömək göstərilməlidir.

Ölkə prezidentimizin sosial vəziyyətin yaxşılaşdırılması üçün atdığı hər bir addımdan ruhlanan biz mədəniyyət işçiləri öz işimizi günün tələbləri səviyyəsində qurmağa çalışırıq. Bakı Şəhər Mədəniyyət İdarəsinin biz mədəniyyət işçiləri qarşısında qoyduğu hər hansı tapşırığı yüksək səviyyədə həyata keçirməyə cəy göstəririk. Son illərin ən dəyərli işlərindən gənc istedadların baxış-müsabiqəsini ilk dəfə olaraq Nəsimi rayonunda biz həyata keçirdik. Təhsil şöbəsinin işçilərini də cəlb etdiyimiz bu tədbirin çox böyük təsiri olmaqla yeni yaradıcı istedadlı gənclərin üzə çıxmasına səbəb oldu. Ayrı-ayrı nominasiyalar üzrə qalib gələn gənclərimiz Bakı Şəhər Mədəniyyət İdarəsinin, Nəsimi Rayon Təhsil Şöbəsinin və H. Sarabski adına mədəniyyət evinin xüsusi mükafatlarına laiq görülüblər və bütün bunlar televiziyanın birinci kanalı ilə nümayiş etdirildi.

Bu baxış - müsabiqənin nəticəsi olaraq indi həmin uşaqlar mədəniyyət evində fəaliyyət göstərən ayrı-ayrı dərnəklərdə məşğul olur, rayon və respublika əhəmiyyətli tədbirlərlə iştirak edir, öz qabiliyyətlərini daim artırırlar.

Dünya Azərbaycanlılarının Həmirəyliyi gününə həsr olunmuş "Azərbaycan dünyam mənim", "Yeni il şənliyi" ilə əlaqədar şəhər ərazisində olan "N" saylı hərbi hissədəki əyləncəli konsert proqramı, "20 yanvar" şəhidlərinin ildönümünə həsr olunmuş "İnsanların günahı nə?" Xocalı faciəsinə həsr olunmuş "Nə müdhüş, nə dəhşət gecəymiş, Allah" adlı ədəbi-bədii kompazisiyalar, Qadınlar günü ilə əlaqədar "Qadınlar böyük qüvvədir" musiqili-əyləncəli konsert proqramı, Novruz şənliyi ilə əlaqədar olaraq "Novruz gəldi, yaz gəldi" mövzusunda musiqili-əyləncəli proqram, 31 mart Azərbaycan xalqının soyqırımı ilə əlaqədar "Qan yerdə qalmayacaq" mövzusundakı ədəbi-bədii gecə, "Gülüş ömür uzadır" beynalxalq teatr gününə şəsr olunmuş tamaşa, ulu öndərimiz H. Əliyevin doğum günü ilə əlaqədar "O xalqın əbədi lideridir" mövzusunda ədəbi-bədii kompazisiya, Gül bayramı ilə əlaqədar Milli parkda geniş konsert proqramı və sair tədbirlərin mütamadi olaraq keçirilməsi gənclərin dünyagörüşünün və mədəni səviyyəsinin artmasında çox böyük rolu vardır. Bu gün mədəniyyət evində fəaliyyət göstərən gənclər ayrı-ayrı sahələri üzdə Bakı Şəhər Mədəniyyət İdarəsinin təşkil etdiyi baxış-müsabiqənin qalibləridir. "Gülşən" instrumental ansamblı, "Oxu tar" müsabiqə-sinin qalibi kimi "Araz" poeziya teatrı, "Tac" vokal qrupunun və "Dəcəl uşaqlar" rəqs müsabiqələrin qalibləri kimi mahnı teatrında və digər səviyyəli auditoriyalardakı çıxışları, xüsusən tədbirlər proqramına uyğun olaraq hərbi-vətənpərvərlik mövzusu ilə əlaqədar hərbi hissələrdə, Ədliyyə Nazirliyinin mühafizə alayında, ordu günü ilə əlaqədar yenə də mədə-niyyət evində və hərbi hissədəki çıxışlar, uşaq evlə-rində və qocalar evindəki mütamadi çıxışlarımız mədəniyyət evinə nüfuz qazandırmışdır. Yüksək tələbkarlığın nəticəsidir ki, mədəniyyət evində fəaliyyət göstərən ayrı-ayrı kurs



və dərnəklərdə öz işini bilən savadlı müəllimlər cəmlənmiş və onlar gənclərin mənəvi dayaqları ilə öz işlərini daim uzlaşdırmağa çalışırlar. R. Qılmanova, G. Əsgərova, C. Əsgərov, R. Mərdanov, T. Əhədova, S. Əhədova, S. Zeynalova, F. Şəmsiyev və başqaları bu qəbildən olan müəllimlərdir.

Mədəniyyət evində fəaliyyət göstərən bədii şura, mədəni-kütləvi tədbirlərin həyata keçirilməsində stimul rolu oynayır. Heç bir tədbir şuranın razılığı olmadan səhnəyə yol tapa bilmir.

Mədəniyyət evinin maddi-texniki bazası da ildən-ilə genişlənir. Musiqi avdanlıqlarının, mal və inventarlarının, kompüterlərin alınaraq istifadəyə verilməsi, işçilərin iş və əmək şəraitinin yaxşılaşdırılması gördüyümüz işlər sırasındadır.

Qarşıda bizi çox işlər gözləyir. Yeni folklor qrupunun yaranması, estrada və vokal üzrə kollektivi formalaşdırmaq, muğam mərkəzi, şou-balet rəqsləri və yeni yaradıcılıq kollektivlərini yaratmaqla, milli-mədəni və mənəvi mədəniyyətimizi qoruyub saxlamaqla dövlətimizin mədəniyyət haqqındakı siyasətini daim inkişaf etdirmək qarşımızda qoyulan ən vacib işlərdən biridir.

**E. Həsənqızı**